Leyla Məcidova

Anamdan yadigar nəğmələr

Bu kitabı həyatı vaxtsız tərk etmiş el anası,
anam Əminə xanımın əziz xatirəsinə həsr edirəm.

Bakı – Ecoprint – 2026

Redaktor: **Xudaverdi Cavad,**
AYB -nin üzvü,
Şair-publisist

Leyla Məcidova
"Anamdan yadigar nəğmələr"
Bakı, "Ecoprint", 2026, 92 s.

Tarix üzrə fəlsəfə doktoru, LDU-nun dosenti Leyla Məcidovanın növbəti şeirlər kitabını "Anamdan yadigar nəğmələr" adlandırması heç də təsadüfi deyil. Müəllif kitabda yer alan şeirlərdə həyatı vaxtsız tərk etmiş anası Əminə xanımın simasında müqəddəs ana məhəbbətini, ana sevgisini tərənnüm etməklə bərabər eyni zamanda ana həsrətindən, ana itkisindən doğan kədərini, nisgilini oxucuları ilə bölüşür.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-29-074-6

© Leyla Məcidova

Ön söz və ya ana haqqında düşüncələr (Müəllifdən)

Əziz oxucular! Sizinlə ilk görüşüm "Dünya niyə sevilməsin" kitabımla olub. Müxtəlif illərdə yazdığım şeirlər toplusu olan bu kitabda əsasən müasir narahat dünyamızın problemlərindən doğan poetik fikirlərim, düşüncələrim öz əksini tapıb. Yəqin ki, fikir və düşüncələrimə heç də biganə qalmazsınız. Çünki dünya ümumi evimizdir. Əgər dünya savaşlar meydanına çevrilibsə, qan tökülürsə, körpülər, binalar dağılırsa, insanlar dədə-baba yurdlarından didərgin salınırsa, kiçik xalqların haqqı tapdalanırsa, "super güc"lərin dünyanı yenidən bölmək cəhdi reallaşırsa, nüvə təhlükəsi getdikcə artırsa və bütün bunlara rəğmən beynəlxalq təşkilatlar və hüquq susursa, elə bilirəm narahatlığımız təbiidir.

Kitabda paralel olaraq digər mövzularda qələmə aldığım şeirlər də yer alıb. Xüsusilə Vətən sevgisinin tərənnümü yaradıcılığımda qırmızı xətt kimi keçir. Bu, başqa cür də ola bilməz. Çünki boya-başa çatdığımız, füsunkar təbiətindən yararlandığımız, təmiz ab-havasını ciyərlərimizə çəkdiyimiz... doğma yurd, kənd, qəsəbə, şəhər və bütövlükdə Azərbaycan dünyaya baxan gözlərimizdir...

"Anamdan yadigar nəğmələr" adlı kitabımda isə qələmə aldığım şeirlərdə müqəddəs varlıq olan

anamın simasında bütün anaların lirik obrazını yaratmağa çalışmışam.



Məlum olduğu kimi, dünya, o cümlədən Azərbaycan ədəbiyyatında analar haqqında çox əsərlər yazılıb. İstər bədii nəsrimizdə, istərsə də poeziyamızda ana sevgisinin fərqli çalarları öz əksini tapıb. Çünki ana müqəddəsliyi, ana varlığı və sevgi dolu ürəyi fikrimcə, bütün yazılanlardan, deyilənlərdən yüksəkdə

durur. Təsadüfi deyil ki, İslam peyğəmbəri Həz. Məhəmməd Salavatulla buyurub: "Cənnət anaların ayağı altındadır..." Həyatından bilirik ki, peyğəmbərimiz də anasını çox erkən yaşında itirib, ana qayğısını, nəvazişini görməyib, lakin həmişə anasızlığın acısını, həsrətini dönə-dönə çəkib və dilə gətirib.

Bu qeydlərimi yazanda istər-istəməz yadıma Azərbaycan Sovet dramaturgiyasının banisi Cəfər Cabbarlının məşhur "Ana" şeiri düşür. Dahi dramaturq anasına bəslədiyi müqəddəs sevgini ürəklərə nüfuz edən poetik yüksəkliyə qaldıraraq deyir:

Ana, ana! O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir.
Onun əlilə bəla-bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

İnsanın sevgi ünvanları çox olsa da, ana sevgisinin yeri başqadır. Kim bilir, bəlkə ana sevgisi o qədər müqəddəsdir ki, dünyaya göz açdığımız torpaq da məhz buna görə "ana Vətən" adlanır. Fikrimcə, bu güclü məntiqdir. Vətən anaların anasıdır. Əgər ana ailədə təkcə öz övladlarını ağuşuna alıb ərsəyə çatdırırsa, Vətən isə bütün xalqı öz isti qucağına alır. Lakin məqam gələndə anaların böyütdüyü, süd verdiyi igid oğullar Vətənin müdafiəsinə qalxır, ölüm-dirim döyüşlərinə qatılırlar. Təbii ki, biz bunu Qarabağ savaşında da gördük. Ana südü ilə ürəklərinə Vətən sevgisi axan bu oğullar "Vətən yaşasın" deyə müqəddəs

şəhidlik zirvəsinə ucaldılar. Məlum olduğu kimi onların çoxu hətta döyüşlərə könüllü qatılmışdı. Övladları cəbhədə vuruşan anaların özləri də əslində əsgər idilər. Necə ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Xudaverdi Cavad Lənkəranlı analara həsr etdiyi "Analar əsgərdi..." şeirində yazır:

Hay verdi Vətənin çağırışına,
Döyüşçü analar, əsgər analar.
Oğullar göndərdi haqq savaşına,
Hərəsi bir igid, bir ər, analar.

Qəlbi cəbhədəydi, olsa da evdə,
Səngərə dönmüşdü həyət-bacası.
Qulağı səsdəydi, yuxusu ərşdə,
Görəsən sağdırmı ciyərparası.

Məğrurluq yağsa da üzündən belə,
Qapılıb özünə gizli yanıblar.
Onlar şəhid olub şəhid əsgərlə,
Yaralı əsgərlə yaralanıblar.

Əymədi bir an da şah vüqarını,
Gəlmədi bir kövrək ağı dilinə.
Qucaqda bəsləyən oğullarını
Çiynində apardı son mənzilinə.

Analar böyütdü saysız igid, ər - ...
...Düşmənin məzarı qazılsın gərək!
Oğullar qanıyla çalınan zəfər
Analar adına yazılsın gərək!

44 günlük Qarabağ savaşı və anti-terror əməliyyatı zamanı oğullarını cəbhəyə göndərmiş anaların keçirdiyi narahatlığının, hiss və həyəcanlarının yüksək poetik ifadəsi olan bu şeiri bütövlükdə publisistik qeydlərimə əlavə etməkdə məqsədim anaların məğrurluğunu, cəbhədə həlak olmuş övladlarının tabutunu öz çiynində son mənzilə aparmasını, "Qoy Vətən sağ olsun" deyə nümayiş etdirdiyi qüruru, əyilməzliyi diqqətə çatdırmaqdır. Elə bilirəm ki, bu, ana sevgisinə söykənən alovlu vətənpərvərliyin ən bariz nümunəsidir.

Həyat qəribədir. Bir də görürsən ki, bütün varlığınla bağlandığın bir insan gözlənilmədən səni tərk edərək həyatdan gedir. Sənə həyat verən bu insanı itirmək bəlkə də adama ölümdən betərdir. Mən bunu anam Əminənin timsalında gördüm. Onu itirdiyim ilk günlərdə mənə elə gəlirdi ki, artıq mənim üçün də həyat bitib. Çünki həyatı anasız təsəvvür edə bilmirdim. Anamın iki oğlan və iki qız olmaqla 4 övladı vardı, hələ nəvələri də dünyaya gəlmişdi. Lakin anam öz sevgisini təkcə övladlarına verməklə kifayətlənmirdi, ümumiyyətlə o, həyata, insanlara sevgi gözü ilə ba-

xırdı. Yəni demək istəyirəm ki, yad uşaqlara da öz övladı kimi baxır, sevincinə sevinir, kədərinə kədərlənirdi...

Yeri gəlmişkən deyim ki, Əminə ana həm də tanınmış xalq təbabətçisi idi. Təkcə Lənkərandan deyil, qonşu rayonlarından da yanına xəstələr gəlirdi. Onların arasında hətta ixtisaslı həkimlər də vardı. Təbabətdə sınıq işini anam kimi bilən yox idi. Ev, ailə qayğıları ilə bərabər xəstələri qəbul etməyə də vaxt tapırdı. Evimizə qubar dolu ürəklə gələn hər xəstə üzündə təbəssümlə, dodağında gülüşlə evinə qayıdırdı. Yanına gələn xəstələrin maddi imkanları heç də eyni deyildi. Anam maddi sıxıntı keçirən, yaşayış səviyyəsi aşağı olan xəstələrdən qətiyyən pul götürməzdi. Yanına gələn xəstələrin ilk növbədə maddi vəziyyəti ilə maraqlanardı.

Yaxşı yadımdadır, onda orta məktəbin 10-cu sinifində oxuyurdum. Hansısa rayondan anamın yanına xəstə gətirmişdilər. Xəstəni müayinə etdi. Məlum oldu ki, ayağı burxulub, diz qapağından sallanmışdı. Anam xəstənin ayağını yerinə salandan sonra ağrısı kəsildi, üzünə təbəssüm gəldi. Xəstəni gətirən anamdan heç nə soruşmamış masanın üstünə pul qoydu. Anam xəstənin və onu gətirən adamın üzündən hiss etmişdi ki, onun maddi vəziyyəti heç də yaxşı deyil. Pulu götürüb xəstənin cibinə saldı və üzünü pulverən adama tutub soruşdu: - Sən xəstənin nəyisən?

- Qonşusu, - deyə cavab verdi - Ata-anası yoxdur. Avtomobil qəzasında dünyasını dəyişiblər. Uşaq başsız qaldığına görə el-obanın köməyi ilə böyüyür.

Bu xəbərdən elə bil anamı ildırım vurdu. Tez atam Qadir müəllimin yanına gedib qayıtdı. Əlindəki pulu uşağın cibinə salıb dedi: - Bu da Əminə bibisinin payı...

Vəziyyət elə alındı ki, uzaqda yaşamasına baxmayaraq anam uşaqla tez-tez maraqlanır, ona yardım göstərməkdə davam edirdi.

Xeyirxahlığı ilə bağlı yalnız bir epizodu xatırlatdım, istər tibbi, istərsə də maddi yardım göstərdiyi xəstələrdən çox misal gətirə bilərəm. Xeyirxahlığına görə hətta o vaxt anama "Ana ürəyi" adlı bir şeir də həsr etmişdim. Həmin şeiri oxucuların diqqətinə çatdırmağı özümə borc bilirəm:

Həyata həyatdı öz varlığıyla,
Övlada, nəvəyə bağlılığıyla.
Deyirəm özünün qar saflığıyla,
Bu dünyada təkdi ana ürəyi.

Olub, için-için gizli ağlayıb,
Sevinci, gülüşü bizə saxlayıb.
Ümid sayğacıyla günləri sayıb,
Kövrəkdən kövrəkdi ana ürəyi.

Tanrıdan hamıya xoşbəxtlik dilər,
Xeyir-duasından gur işıq gələr.
Toxunma qəlbinə, inciyə bilər,
Bir zərif çiçəkdi ana ürəyi.

Ana şəfqətindən güc alsa insan,
Nura qərq olardı sevgidən cahan.
Kaş ki, döyünməkdən qalmasın bir an,
Hamıya gərəkdi ana ürəyi.

İşıq, nur axtarır həmişə gözü,
Nə desə, ürəkdən gəlir hər sözü.
Deyirəm sığışar dünyanın özü -
Geniş bir ürəkdi ana ürəyi.

"Anamdan yadigar nəğmələr" adlı kitabımda anamın simasında övladlarını min bir əziyyətlə ərsəyə çatdıran, yolunda saçlarını ağardan, onları daim xoşbəxt görmək istəyən bütün anaların ürəklərindəki sevgini, məhəbbətini paylaşmağa çalışmışam. Elə bilirəm ki, mənim kimi analarını vaxtsız itirənlər çoxdur. Yəqin ki, bu kitabı oxuyandan sonra onlar yenidən analı günlərinə qayıdacaq, ömrünü balalarının ömrünə qatan və həyatı vaxtsız tərk edən analarını bir daha ehtiramla xatırlayacaqlar.

Əminə anam illərdir ki, torpaq altında bizdən, yəni balalarından xəbərsiz yatır. Ondan sonra ailəmi-

zin həyatında çox hadisələr baş verib. Bulanıq sular durulub. Arzuladığı xoşbəxtlik, səadət qapımızı döyür. Övladlarının hamısı fəal həyat mövqeyi qazanaraq mənsub olduğu nəslin, soykökün şərəf və ləyaqətini uca tutur. Vaxtilə qucağına sığınan nəvələri övladları kimi ali təhsil alaraq işləyir və cəmiyyətə fayda verirlər. Mən özüm də bir qız övladı olaraq anamın etimadını doğruldaraq xalq təbabətçisi kimi yolunu davam etdirməklə yanaşı həm elmi-pedaqoji fəaliyyətlə, həm də bədii yaradıcılıqla məşğulam. Lənkəran Dövlət Universitetinin dosenti və Lənkəran Tarix- Diyarşünaslıq Muzeyinin direktoruyam...

Təbii ki, bütün bunlara baxmayaraq ana həsrəti məni bir an belə tərk etmir. Həmişə onun nurlu siması gözlərimin qarşısında canlanır. Bəzən elə bilirəm ki, o lap yaxındadır, üzünü göstərmir, səsimə səs vermir. Lakin bu üzücü həsrət illəri gözlərimdə yaş qoysa da, üzümün təbəssümünü, dodağımdakı gülüşü aparsa da, eyni zamanda poetik misralara, silsilə şeirlərə çevrilərək gündəliyimdə yer alıb. Həmin silsilə şeirləri yığıb "Anamdan yadigar nəğmələr" adlı ikinci kitabımı sizin mühakimənizə verməyi qərara aldım. Bəs müqəddəs ana sevgisini, üzücü ana həsrətini lirik hislərlə necə ifadə etmişəm? Təbii ki, bu haqda heç nə deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, məhz ana sevgisi, ana həsrəti əlimə qələm verərək bu şeirləri mənə yazdırıb. Elə buna görə də anamdan yadigar

qalan bu kövrək, qəm-kədərlə yüklənmiş nəğmələri Sizə təqdim edirəm.

Əziz oxucular!

"Anamdan yadigar nəğmələr" kitabım haqqında fikirlərinizi mənimlə bölüşmək üçün indi söz sizindir! Verəcəyiniz reaksiyaya görə qabaqcadan təşəkkürümü bildirirəm.

Hörmətlə, sizin Leyla xanım Məcidova,
LDU-nun dosenti, tarix üzrə fəlsəfə doktoru

Şeirlər

Nə yazdım, nə dedim, gəldi ürəkdən,
Hələ tapmasam da sənət yerimi.
Ərməğan edirəm oxucuma mən
"Anamdan yadigar nəğmələr"imi.

Ana vətən

Sığınmışam qucağına,
Qızınmışam ocağına.
Sənin yeni növrağına
Vurulmuşam, ana Vətən!

Vüqarlandım şiş dağınla,
Ətirləndim gül bağınla.
Suyu duru bulağınla
Durulmuşam, ana Vətən!

Təbiətin ağuşunda,
Rahatlandım yay-qışında.
Yolun eniş-yoxuşunda
Yorulmuşam, ana Vətən!

Qucağında anam yatıb,
El-obaya yanan yatıb.
Ömrünü ömrümə qatıb
Boy atmışam, ana Vətən!

Düşdün zəfər sorağına,
Qovuşdun Qarabağına.
Səcdə qılıb torpağına -
Baş qoymuşam, ana Vətən!

Qisas alsan da düşməndən,
Yolun keçdi şəhidlikdən.
Zəfərinlə yenidən mən
Doğulmuşam, ana Vətən!

Lənkəran -2021

Ürəyim ana

Sənə ötən ilim, ayımmı deyim,
İlahidən gələn payımmı deyim,
Gündüz Günəş, gecə Ayımmı deyim? -
Hər yerdə hər zaman gərəyim ana,
Sinəmdə döyünən ürəyim ana.

Çaldığın laylayın qulağımdadır,
O donan gülüşün dodağımdadır.
Ruhun nigaran tək sol-sağımdadır,
Hər yerdə hər zaman gərəyim ana,
Sinəmdə döyünən ürəyim ana.

Xəstəyə şəfalı əllərin vardı,
Qəlbə nüfuz edən dillərin vardı.
Sənə hörmət edən ellərin vardı,
Hər yerdə hər zaman gərəyim ana,
Sinəmdə döyünən ürəyim ana.

Qoynuna sığınıb rahat yatmışam,
Olub ki, yuxuna haram qatmışam.
Sənə ağrı-acı mən yaşatmışam,
Hər yerdə hər zaman gərəyim ana,
Sinəmdə döyünən ürəyim ana.

Dünya bir yanaydı, sən də bir yana,
Böyütdün bizləri sən yana-yana.
Dilimin əzbəri: "ana ay ana",
Hər yerdə hər zaman gərəyim ana,
Sinəmdə döyünən ürəyim ana.

Gəldiyin yolları yorub getmisən,
Ağrı-acılardan doyub getmisən.
Leylanı anasız qoyub getmisən,
Hər yerdə hər zaman gərəyim ana,
Sinəmdə döyünən ürəyim ana.

Lənkəran - 2025

Laylayına darıxmışam

Demə bir quru nəfəsdi,
İlahidən gələn səsdi.
Səmum yeli hardan əsdi? -
Laylayına darıxmışam.

Gecə sirdaşın ay olub,
Həmdəminsə laylay olub.
Buludun gözləri dolub -
Laylayına darıxmışam.

İllər keçib, izi qalıb,
Səsin itib, sözü qalıb.
Həsrətinin özü qalıb,
Laylayına darıxmışam.

Mən sanıram anaları
Dünyanın ilk nəğməkarı.
Özün idin bəstəkarı -
Laylayına darıxmışam.

Ona bənzər bir səs hanı? -
Axtarsaq da bu dünyanı.
Bir də qaytar o zamanı,
Laylayına darıxmışam.

Lənkəran - 2025

Möhtacam indi

Sıxır boğazımı həsrətdən qəhər,
Yediyim, içdiyim olubdu zəhər.
Duyardım ətrini hər axşam -səhər,
Ana, nəfəsinə möhtacam indi.

Səndən danışmağa başlayım hardan,
Yoxsa bir mələkdin ulu Tanrıdan?
Məni qoruyardı şaxtadan, qardan,
Ana, nəfəsinə möhtacam indi.

Ana, səndə bitir övlad sevgisi,
Hardan öyrənmisən axı bu dərsi?
Yoxsa artıq bildin quru nəfəsi,
Ana, nəfəsinə möhtacam indi.

Azalıb istisi evdə ocağın,
Necə də istiydi ana qucağın
Ruhlar aləmindən gəlir sorağın,
Ana, nəfəsinə möhtacam indi.

Ətrini əkdiyin bağdan alıram,
Nurunu Günəşdən, Aydan alıram.
Bircə həsrətinlə mən tək qalıram,
Ana, nəfəsinə möhtacam indi.

Analar içində axtarır gözüm,
Görüb başdaşını tükənir sözüm.
Leylayam, bir ana olsam da özüm,
Ana, nəfəsinə möhtacam indi.

Lənkəran - 2024

Cənnət lap yaxın imiş

Həzrət Məhəmməd Peyğəmbər Salavatulla buyurub: "Cənnət anaların ayağı altındadır..."

Müqəddəs varlıq olan analara verilən bu dəyərdən sonra deməyə heç bir söz, fikir qalmır. Cənnət bizə bu qədər yaxın ikən təəssüf ki, çoxumuz bunu görmür, sağlığında ananın qədrini bilmirik. Yalnız həyatını dəyişəndən sonra anlayırıq, biz elə bir müqəddəs insanı itirmişik ki, o, bizə bütün həyatını bağışlayıb. Təbii ki, sonrakı peşimançılıq fayda vermir. Şair demişkən, sağlığında qiymət verin insanlara!

Müəllif

Doğma anasını tez itirsə də,
Verib dəyərini ulu Peyğəmbər.
Ümmətə sözünü o, yetirsə də,
Bəxtinə doğmayıb günəşli səhər.

Dadıb acısını anasızlığın,
Həsrəti onunla yaşa dolubdur.
Dolub ürəyinə qəm yığın-yığın,
Ana sevgisindən uzaq olubdur.

Müqəddəs varlıqmış ana dünyada,
Dünya çiyni üstdə bərqərar olmuş.

Ürəklər sızlayır düşdükcə yada,
Övlada sonadək vəfadar olmuş.
Anadan demə gül ətri gələrmiş,
Ona gül çələngi hörməmişik biz.
Cənnət ayağının altında imiş,
Bəs niyə vaxtında görməmişik biz?!

Bəzən də olmuşuq biz üzünə ağ,
Heç bunun fərqinə o, varmayıbdır.
Sən bir onun geniş ürəyinə bax,
Bizdən sevgisini azaltmayıbdır.

Ayaq qoyan yeri cənnətsə əgər,
Demək varlığının əvəzi yoxdur.
Övladı önündə sinəsi sipər,
Sevgisini ölçən tərəzi yoxdur.

Ürəyi tez sınan kövrək şüşədir,
Tələsək qəlbini tez almaq üçün
Ana sevgisini daş da göyərdir,
İşıq tək hamıya paylamaq üçün.

Lənkəran - 2026

Ana ürəyi

Həyata həyatdı öz varlığıyla,
Övlada, nəvəyə bağlılığıyla.
Deyirəm özünün qar saflığıyla
Bu dünyada təkdi ana ürəyi.

Olub, için-için gizli ağlayıb,
Sevinci, gülüşü bizə saxlayıb.
Ümid sayğacıyla günləri sayıb,
Kövrəkdən kövrəkdi ana ürəyi.

Tanrıdan hamıya xoşbəxtlik dilər,
Xeyir-duasından gur işıq gələr.
Toxunma qəlbinə, inciyə bilər,
Bir zərif çiçəkdi ana ürəyi.

Ana şəfqətindən güc alsa insan,
Nura qərq olardı sevgidən cahan.
Kaş ki, döyünməkdən qalmasın bir an,
Hamıya gərəkdi ana ürəyi.

İşıq, nur axtarır həmişə gözü,
Nə desə, ürəkdən gələr hər sözü.
Deyirəm sığışar dünyanın özü -
Geniş bir ürəkdi ana ürəyi.

Lənkəran - 2026

Qoymazdım həyatın sönə...
Anamın 70 illiyinə

Baxıram həsrətlə indi keçmişə,
Bizimçün qəlbini verdin hər işə.
Özünü unutdun, çəkdin həmişə
Övlad sevgisini önə, ay ana.

İnciməzdin acı sözümdən mənim,
Elə hey öpərdin üzümdən mənim.
Yuxu da qaçıbdı gözümdən mənim,
Başıma düşmüsən yenə, ay ana.

Analı günlərim ömrümə yazdı,
Laylayın bir kövrək kamandı, sazdı.
Mən bütün ömrümü versəm də azdı,
Mənə verdiyin bir günə, ay ana.

Sənsiz başım dəyib hey daşdan daşa,
Balanam, önündə çatsam yüz yaşa.
Baxma gözlərimdən axan göz yaşa,
Həmişə borcluyam sənə, ay ana.

Övlada bir ömür qalıbdı səndən,
Bəs sənə nə qaldı övlad-nəvəndən?
Çoxdan laylayına darıxmışam mən,
Yenə bir laylay çal mənə, ay ana.

Arxanda qoyduğun illərə baxdım,
Güldanda soluxan güllərə baxdım.
Səndən qalan kövrək izlərə baxdım,
Sarsıldım, kaş illər dönə, ay ana.

Bitməz səndən olsa sözüm, söhbətim,
Sənə borcdan gəlir eşq, məhəbbətim.
Kaş çata biləydi gücüm, qüdrətim,
Qoymazdım həyatın sönə, ay ana.

Lənkəran - 2021

Ana sevgisi

Balası qayğısız böyüsün deyə,
Razıdır hər zülmə boyun əyməyə.
Gərib sinəsini əsən küləyə,
Bir sipər olubdu ana sevgisi.

Bir tikan batırsa əgər barmağa,
Çəkir ağrısını, dözmür o dağa.
Köməksiz qalanda dönüb yumağa,
Bulud tək dolubdu ana sevgisi.

Övladın başında varsa bir xətər,
Bunu görmək ona ölümdən betər.
Sevinci, şadlığı bir anda itər,
Saçını yolubdu ana sevgisi.

Övladla keçibdi ömrün hər günü,
Dinləyib qəlbinin döyüntüsünü.
Xoşbəxtlik bilərək o toy-düyünü,
Kamını alıbdı ana sevgisi.

Həmişə cavandı keçsə də yaşı,
Silibdi gözlərdən tökülən yaşı.
Nəinki torpağı, göyərdir daşı,
Ərzə səs salıbdı ana sevgisi.

Çinar qamətini əzab əyəndə,
İllər saçlarına qar ələyəndə,
Ana bu dünyadan köç eləyəndə
Çiçək tək solubdu ana sevgisi.

Lənkəran - 2024

Ömür də borcdur...

Hər kəsin xoş keçən günü, ayı var,
Fəqət çalışırıq çox vaxt var üçün.
Hamıya verilən ömür payı var,
Ömür də bir borcdur insanlar üçün.

Gün gələr, qəddini əyəcək hər dağ,
Həyat axarıyla ötüb gedəcək.
Solacaq, qalmaz heç nə bağça, nə bağ,
Bizi də nəsillər əvəz edəcək.

Bəlkə də bu yolu vurmadıq başa,
Hardasa bitəcək ömürlərimiz.
Biz də köçəcəyik bir gün yaddaşa,
Qalacaq həyatda əməllərimiz.

Biz ki, bu həyatdan ayrılacağıq,
Yaxşı, pis həyatda izimiz qalar.
Bir ömür borcunu qaytaracağıq,
Fəqət bu dünyada qəlbimiz qalar.

Yığılır hesaba nə qədər borclar,
Tükənir borclarla ömürlərimiz.
Anaya, Vətənə borclarımız var,
Övladlıq borcunu unutmayaq biz.

Lənkəran - 2015

Həyat

Ötən illər xəyal kimi,
Gülür üzə iqbal kimi.
Elə şirinsən bal kimi,
Ürəkləri aldın, həyat.

Kimə gülsən, kimə tikan,
Baş açmayır səndən insan.
Ölümlərə verdin meydan,
Özün gendə qaldın, həyat.

Arzu gül tək açan yerdə,
Zülmət bizdən qaçan yerdə,
Ürək quş tək uçan yerdə,
Köç təblini çaldın, həyat.

Qəmə bükdün hər çağımı,
Anasız od-ocağımı.
Qovub sevinc qonağımı,
Ürəyə qəm saldın, həyat.

Dərə keçib dağ aşırsan,
Nəsil-nəsil yaşayırsan.
Ömürləri daşıyırsan,
Hey boşalıb doldun, həyat.

Lənkəran - 2013

Ana əlləri

Gününü zəhmətlə vurardı başa,
Cənnət yaradırdı gəl et tamaşa.
Əkib becərməklə torpağa, daşa
Yeni həyat verdi ana əlləri.

Onda qandan gələn təbiblik vardı,
Xəstələri sağlam yola salardı.
Min qayğı yükünü o, daşıyardı,
Apardı hər dərdi ana əlləri.

Zəhmətdən naxışı-qübarı vardı,
Əkdiyi ağacdan nübarı vardı.
Ömrünün həm qışı, baharı vardı,
Dözümdü, hünərdi ana əlləri.

Səhmana salardı evi-eşiyi,
Sonra yırğalardı körpə beşiyi.
Yayılardı dadlı xörəyin iyi,
Daim işdə idi ana əlləri.

Böyüklə böyükdü, kiçiklə kiçik,
Çalışardı kimsə düşməsin incik.
Hərəsi bir qızıl, hərəsi inci...
Bir cüt göyərçindi ana əlləri.

Üzümdə üzünün aynası qaldı,
Qəlbimdə qəlbinin sevdası qaldı.
Əlimdə əlinin təması qaldı,
Quş tək hara getdi ana əlləri?!

Lənkəran -2020

Ömrü yarıda qaldı

Haram qatmamışdı duz-çörəyinə,
İşıq, nur qatardı hər diləyinə.
Yaxşılıq hakimdi saf ürəyinə,
Pisliyi çiynindən atıbdı anam.

Udardı həmişə qəzəbi, kini,
Pozmazdı heç zaman öz təmkinini.
Qəmi yox, qəlbinin hər sevincini
Özgənin dərdinə qatıbdı anam.

Ömürdən sürətlə keçdikcə illər,
Bu qısa ömürdə yaşadı nələr...
Övladlar bir yana, gəldi nəvələr...
Qayğılar selində batıbdı anam.

Vursa da özünü min közə, oda,
Mələk surətini verməzdi bada.
Ömrü tez qırıldı, qaldı yarıda,
Demə arzusuna çatıbdı anam.

Verərdi könlünü xeyirxah işə,
Sirdaş kəsilmişdi Ayla Günəşə.
Gecələr çıxsa da yuxusu ərşə,
Torpaqda əbədi yatıbdı anam.

Lənkəran - 2022

Məzar daşı

Anam Əminə Səpnəkəran kənd qəbristanlığında uyuyur. El-obanın böyük hörmət və məhəbbətini qazanmış anamın dəfni böyük izdihamla müşaiyyət olundu. Uzaqdan, yaxından gələnlər, kənd sakinləri bu mərasimə qatılmışdılar. Anamdan ayrılmaq və onu bu tezliklə itirmək mənim üçün çox ağır idi...

Anam yox, qarşımda bir məzar daşı,
Əyilib önündə hamının başı.
Axır gözlərimdən isti göz yaşı,
Halımdan xəbəri yoxdu anamın.

Hamının qəddini lal sükut əyib,
Bütün ömrü boyu qəm-kədər yeyib.
Qəbrinin üstündə ot da göyərib,
Görən yenə işi çoxdu anamın?!

Fəqət çağırıram, heç səsi gəlmir,
Torpaq qəfəsində nəfəsi gəlmir.
İllərdir ayrılıb, sevgisi gəlmir,
Həsrəti qəlbimə oxdu anamın.

Qohum da, qardaş da olmuşdu üzgün,
Quranın səsinə ayıldım o gün.
Elə bil qəlbimə toxtaqlıq üçün,
Qəlbinin qüruru axdı anamın.

Öpdüm başdaşını, öpdüm doyunca,
Məni oxşamışdı ömrü boyunca.
İzdiham ayrıldı, şəkli dalımca
Həsrətlə boylanıb baxdı anamın.

Lənkəran - 2022

Zəhmət dərsi

Atam Qadir müəllim orta məktəbdə rus dilindən dərs deyərdi. Həmişə məktəbdən qayıdanda anam Əminəni hər hansı bir işlə məşğul görərdi. Axırda bir gün səbri daşıb dedi:

- Ay Əminə, həyatda hər şeyin bir həddi var. Məşğuliyyət, iş görmək yaxşıdır. Amma hərdən istirahət də pis deyil.

Anam söz altda qalan deyildi. Cavabı da həmişə məntiqə əsaslanırdı.

- Bilirəm, - dedi - Mənim üçün ən yaxşı istirahət elə işdir, əməkdir.

- O cür demirəm, - deyə Qadir müəllim yarızarafat, yarıciddi dialoqu bir az da uzatdı - Bütün gücünü övladlara verirsən. O gücdən nəvələrinə də saxla.

Nəvələrin adını eşidən anamın üzü bir az da işıqlandı. Sevincini, gülüşünü atamla paylaşıb dedi:

- Qətiyyən narahat olma, gücün nəvələrimə də bəs eləyər...

Daim dəstəklərdi halal zəhməti,
Xəyanət sayardı o, ətaləti.
Əsil sağlamlığı, istirahəti
Zəhmətdə görürdü Əminə ana.

Fikri, düşüncəsi işdə, əməkdə,
Kimsədən ummurdu fəqət kömək də.
Bir həyat sevgisi vardı ürəkdə,
Yenilməz qürurdu Əminə ana.

Məhəbbət yağırdı bal-şəkər dildən,
Nüfuzu gəlirdi obadan, eldən.
Bağ-bağça salırdı, əkdiyi güldən
Çələng də hörürdü Əminə ana.

Həyat müəllimi tək baxırdıq ona,
Zəhmət dərsi verdi oğlu-qızına.
Sığınıb həmişə öz inadına,
İşlə öyünürdü Əminə ana.

Elin ağbirçəyi, el anasıydı,
Hamının dərdinə o, yanasıydı.
Qonşu uşağı da bir balasıydı,
...Eliylə gülürdü Əminə ana.

Onsuz soyuyubdu ata ocağı,
Qayıtmaz, sönübdü ümid çırağı.
Zülməti yarardı onun işığı,
Qeybdən gələn nurdu Əminə ana.

Analı illərim olsa da xəyal,
Deyir həqiqətdən, fəqət deyil lal.
Haqqa, ədalətə söykənən halal
Bir ömür sürürdü Əminə ana.

Lənkəran - 2026

Ad günün mübarək!

Velədi kənd ümumi orta məktəbinin direktoru, təcrübəli pedaqoq, gözəl ziyalı, ana əvəzi olan bacım Mahizərə ad günü münasibətilə

Gəlsin hər gününə xoşbəxt saatlar,
Səadət gətirsin nurlu sabahlar.
Sənə qucaq açsın o toy-büsatlar,
Könlün məhəbbətlə, sevgiylə vursun,
Bacı, doğum günün mübarək olsun!

Gülsün daim üzün şəfəqlər ilə,
Yolların bəzənsin çiçəklər ilə.
Xəyalın çin olsun diləklər ilə,
Könlün məhəbbətlə, sevgiylə vursun,
Bacı, doğum günün mübarək olsun!

Sən mənə bacı yox, anam olmusan,
Yenilməz bir arxam, qalam olmusan.
Daim qızlarıma həyan olmusan,
Könlün məhəbbətlə, sevgiylə vursun,
Bacı, doğum günün mübarək olsun!

Təzad yaranmasın heç vaxt həyatla,
Arzular quş kimi uçsun qanadla.
Ürəyin həmişə gülsün övladla,
Könlün məhəbbətlə, sevgiylə vursun,
Bacı, doğum günün mübarək olsun!

Mənasız ötməsin heç vaxt bir anın,
Dönəsən tacına dövrün, zamanın.
Qüruru olasan gül Lənkəranın,
Könlün məhəbbətlə, sevgiylə vursun,
Bacı, doğum günün mübarək olsun!

Lənkəran -2025

Yenə yadıma düşdün...

Həyatın vəfası yox imiş demə,
Yenə də yadıma düşdün, anacan.
Sanma qələm çəkdim kədərə, qəmə...
Yenə də yadıma düşdün, anacan.

Oldun el anası, el ağbirçəyi,
Göstərdin hər kəsə ana örnəyi.
Bitməyib sinəmdə həsrət göynəyi,
Yenə də yadıma düşdün, anacan.

Yerini dolduran bir kimsə yoxdur,
Xeyirxah işlərin ömründən çoxdur.
Sənsizlik qəlbimə atılan oxdur,
Yenə də yadıma düşdün, anacan.

Kaş ki, qucağında yenə olaydım,
Gecədən sübhədək mən uyuyaydım.
O gül nəfəsindən ətir alaydım...
Yenə də yadıma düşdün, anacan.

Əllərimdən tutub bağda gəzərdin,
İstədiyim gülü mənə üzərdin.
Sonra saçlarıma çələng düzərdin...
Yenə də yadıma düşdün, anacan.

Zamanın təkəri dönəydi geri,
Bir də yaşayaydım keçən günləri.
Yanımda anamın boş qalıb yeri,
Yenə də yadıma düşdün, anacan.

Lənkəran - 2026

Ad günü

Anam Əminə ad günlərini keçirməyi xoşlamazdı. Amma övladlarına təmtəraqlı ad günləri keçirmək üçün qabaqcadan hərtərəfli hazırlıq görərdi.

Səbəbini soruşanda isə deyərdi: - Ay bala, elə sizin sevinciniz mənim sevincimdir.

Biz buna baxmayaraq sağlığında necə lazımdır, hər il anamın ad günlərini keçirərdik. Dünyasını dəyişəndən sonra həmin günü anım mərasimi ilə əvəz etmişik. Adəti üzrə məzarını ziyarət edir, ona verəcəyimiz gül çələngini qəbrinin üstündə qoyuruq...

Bu gün sevinclə qəm gəlibdi qoşa,
Bahar söykənibdi boranlı qışa.
Axı, qalmayıbdı yer də alqışa,
Axı, ad günündür bu gün, ay ana,
Axı, şad günündür bu gün, ay ana.

Sənsiz keçirilən günə nə deyək? -
Bilmirik ağlayaq, bilmirik gülək.
Həsrəti sevincə necə döndərək? -
Axı, ad günündür bu gün, ay ana,
Axı, şad günündür bu gün, ay ana.

Oğlun da burdadır, qızın da burda,
Çin olmuş diləyin, arzun da burda.
Həsrətə köklənən sazın da burda,
Axı, ad günündür bu gün, ay ana,
Axı, şad günündür bu gün, ay ana.

Nəvələr gözləyir burda nənəni,
Gəl, burda bağrına bas hər birini.
Gəl bölüş bizimlə öz sevincini,
Axı, ad günündür bu gün, ay ana,
Axı, şad günündür bu gün, ay ana.

Düşünüb haqqında biz dərin-dərin,
Gedirik iziylə xatirələrin.
Fəqət masamızda boş qalıb yerin,
Axı, ad günündür bu gün, ay ana,
Axı, şad günündür bu gün, ay ana.

Lənkəran - 2024

60 yaş nədir ki...

Anam Əminənin 60 illik yubileyi münasibətilə

Bir qırış düşməsin ana üzünə,
Həmişə o nurlu üzünü görək.
Gözümüzün nuru axsın gözünə,
Altımışın gəldi, yüzünü görək.

İşığa bələnsin gecə-gündüzün,
Daim sevdiklərin yanında olsun.
Həmişə gülüşə bürünsün üzün,
Tanrının sevgisi canında olsun.

Gündüz Günəş, gecə Ay bildik səni,
Evin, ailənin nurusan, ana.
Gördük saf eşqini, saf niyyətini,
Bulaq suyu kimi durusan, ana.

Tanrı uzun ömür bəxş etsin sənə,
Xoşbəxt analardan, nənələrdən ol.
Arzular bürünsün çiçək ətrinə,
Olsun sağlamlığın qismətdən bol-bol.

Olsun balaların gözünə çıraq,
Səadət iz qoysun göz-qaşında da.
Əllərindən şəfa gəlibdir ancaq,
Səni belə görək yüz yaşında da.

Lənkəran - 2025

Səndən bir gəlibdi...

Anam Əminənin həyata göz yumduyu gününü heç vaxt unuda bilmirəm. Həmin gün az qala havalanmışdım, psixoloji gərginlik keçirirdim. O qədər anama bağlı idim ki, elə bildim mənim də artıq həyatımın sonudur. Təsəvvürümə gətirə bilmirdim ki, analar bir gün bizdən ayrılacaq, dünyasını dəyişərlər. Heç cür inana bilmirdim anaların ölməyinə! Elə bilirdim, nə qədər həyat var, analar da yaşayar. Lakin anamın məzarını, ona qoyulan başdaşını görəndə yəqin etdim ki, yaranan bir gün ölərmiş..

Aşağıdakı şeir məhz bu emosional hislərlə, kədərli notlarla yarandı.

Evin ab-havası dəyişib tamam,
Hamının gözündə bir kövrək istək.
Qalmayıb həyata etibar, inam,
Səndən bir gəlibdi, bir gəlməyəcək.

Ata ocağı da soyuyub sənsiz,
Qəlbinin oduyla alışsın gərək.
Eh..sənə nə qədər oxşasaq da biz,
Səndən bir gəlibdi, bir gəlməyəcək.

8 mart... Güllərdən çələng bağladım,
Çökdü gözlərimə həsrət bulud tək.
Gülün ünvanı yox, sənsiz ağladım,
Səndən bir gəlibdi, bir gəlməyəcək.

Ana təbiətdə ötər fəsillər,
Günəş nur paylayar, Ay sönməyəcək.
Gələr dünyamıza təzə nəsillər,
Səndən bir gəlibdi, bir gəlməyəcək.

Donub dodaqlarda "nənə" kəlməsi,
Nəvələr olubdu kövrəkdən kövrək.
Deyirəm bir ömrün susub nəğməsi,
Səndən bir gəlibdi, bir gəlməyəcək.

08.03.2022

Şəhid anası

Şəhid Orxan Quluzadənin anası, əmim qızı Fatimə Quliyevaya

Qəbul et bəxtinə düşən qisməti,
Sil göz yaşlarını şəhid anası.
Yaşayar sənինlə oğul həsrəti,
Bilirəm, ağırdır hicran yarası.

İçin-için köz tək yansan da belə,
Şəhid anası tək başını əymə.
Oğlun oğul olub Vətənə, elə,
Ucadan ucasan, qürurdan enmə.

Olsa da sağalmaz dərdin ürəkdə,
Göstər, oğlun kimi dəyanətini.
Kaş ki, aparaydı əsən külək də,
O ana qəlbinin kədər, qəmini.

Torpaq oğlun üçün dönüb yatağa,
Zəfər nəğməsini ötən olubdu.
Bükülüb cəsədi ulu Bayrağa,
Qarışıb torpağa Vətən olubdu.

04.05.2025

Səndən ayrıldığım gün...

Sən mənə qiymətli hədiyyə idin.
Əcəl aldı səni məndən ay ana.
Göylərdən yerlərə enmiş mələkdin,
Mənə həsrət qaldı səndən, ay ana.

Mən ki, qürurunun heyranı idim.
O ümman sevginin ünvanı idim.
Doğma qucağının mehmanı idim,
Bülbülmü ayrıldı güldən, ay ana.

Gözlərim gözünü axtarıb durur,
Könlüm körpə olub hey səni sorur.
Sənsizlik ruhumu səssizcə yorur,
Bezmişəm hər gələn ildən, ay ana.

Yenə uşaq olum, səslə sən məni,
Azalsın qəlbimin bitməyən qəmi,
Olmuşam dənizdə azan bir gəmi,
Qurtar məni coşqun seldən, ay ana.

18.11.2021

Analar

Övladları yolunda ömrünü şam kimi əridən analara ithaf edirəm.

Təravət alıbdı ilin yazından,
İşığı gəlibdi dan ulduzundan.
Yarısın həmişə oğlu-qızından,
Dünyanın xoşbəxti olsun analar.

Üzlərinin nuru hilala taydı,
Varlığı bizlərə əvəzsiz paydı.
Övlad sevgisini Tanrıdan aldı -
Bizlərə paylasın, bölsün analar.

Hər biri həyatın bir möcüzəsi,
Evlərə çıraqdır nurlu çöhrəsi.
Gəlsin hər bir evdə ana nəfəsi,
Övladla sevinsin, gülsün analar.

Əlində zəhmətin izləri vardır,
Zəhmətdə bükülməz dizləri vardır.
Dilində "Can, bala" sözləri vardır,
...Körpə dodağından öpsün analar.

Neçə ömür yükü daşısın onlar,
Daim körpəsini oxşasın onlar,
Bu dünya durduqca yaşasın onlar,
Heç vaxt istəmirəm ölsün analar.

09.11.2020

Analar qocalmasın...
(Elegiya)

Əzizim gilə-gilə,
Göz yaşım dönüb selə.
Yollara boylanıram.
Yoxluğun bilə-bilə.

Bu kövrək bayatı dilimin əzbəridir. Elə buna görə də yazdığım elegiyaya onu başlanğıc seçdim. Axı, 18 dekabr 2021-ci ildə Əminə anamı itirmişəm. Həyatda olmadığını bilə-bilə hər gün onun üçün yollara boylanıram. Mənə elə gəlir ki, anam harasa gedib, indicə gələcək. Lakin günlər aylara, aylar illərə çevrilərək gəlmir ki, gəlmir. Evimizdə, ailəmizdə ana yerinin boşluğunu yalnız sonu görünməyən bir həsrət, həddi-hüdudu bilinməyən qəm-kədər doldurur...

Bir ana itirdik. Elə bir ana ki, ürəyi kövrək hislərlə, işıqlı duyğularla yoğrulmuşdu. Hamıya açıq idi sevgi dolu ürəyi! Ən çox yetimlərin, kasıbların pənahı idi. Heç kimi qapısından naümid geri qaytarmazdı. Yetimləri, kasıbları süfrəsinə dəvət edər, halal tikəsini yedizdirməmiş buraxmazdı. Tanınmış bir xalq təbabətçisi kimi səfalı əlləri saysız-hesabsız xəstələrə həyat bəxş etmişdi. Bu əllərdə bir möcüzə, bir hikmət vardı. Elə bir hikmət ki, xəstələrin ağrılarını ya azaldar, ya da tamam yox edərdi.

Qapısını döyənlər çox idi. Təkcə yaşadığı kənddən, rayondan deyil, uzaq rayonlardan, şəhərlərdən gələn xəstələr necə deyərlər, ağrılarını burda qoyub gedərdilər. Hətta elələri vardı ki, uzaqdan gəldikləri üçün öz evində yatızdırardı...

Tanrı belə bir ürək vermişdi ona. Lakin bu ürək başqalarına yarısa da, anama vəfa qılmadı. 18 dekabr 2021-ci ildən sonra qapısını döyənlər peşiman qayıtdılar. Kədərimizi bölüşmək, xatirəsini yad etmək üçün yalnız məzarını ziyarət etmək, qəbrinin üstünə gül düzmək, yasin oxutdurmaqla ona son ehtiramlarını bildirdilər.

Yaşadığı kənd bir el anasını, bir el ağbirçəyini itirdi. Çünki o, öz xeyirxahlığı, şəfalı əlləri ilə təkcə doğma övladlarının deyil, hamının anasına çevrilmişdi. Hamının xeyir-şərinə yarıyardı. Elin sevinci onun sevinci, kədəri onun kədəri idi. Analar məsləhətə gələrdilər yanına. Axı, o, təkcə xeyirxahlığın deyil, həm də müdrikliyin simvolu idi. Müdrik məsləhətləri, ağıllı tövsiyyələri hər evə, ailəyə işıq gətirərdi. Küsənləri barışdırmağa, ailədəki narazılıqları aradan qaldırmağa yardımçı olardı. Bir sözlə, ürəyinin sevgisini qapı-qapı paylayardı. Ümidsizlərə ümid, həyatdan küsgünlərə həyat eşqi bəxş edərdi...

Övladlarına əvəzsiz ana, atam Qadir müəllimə vəfalı ömür-gün yoldaşı idi. Atamı itirəndən sonra həm də bizə ata əvəzi oldu. Həyat yoldaşının xatirəsi-

ni əziz tutmaqla bərabər atasızlığın ağrı-acısını da bizə unutdurmağa çalışırdı...

Bəlkə də ən böyük zəhmətkeş idi anam. Biz əməksevərliyi ondan öyrəndik. Eyni zamanda anamdan yadigar qalan xalq təbabəti peşəsini də davam etdiririk. Bilirik ki, bu, onun ruhuna da xoş gələcək.

Nəhayət, bir ana itirdi dünya! Bir müqəddəs varlıq da, xeyirxah nəfəs də... azaldı. Xeyirxahlığından, qayğıkeşliyindən, əməksevərliyindən, diqqət və sevgisindən hələ çoxları faydalana bilərdi. Axı, belə insanlar dünyanın ömrünə ömür qatanlardır, həyat sevgisini paylaşanlardır.

Bəzən ürəyimə bir fikir hakim kəsilir: "Kaş analar qocalmayaydı, əbədi yaşayaydı..."

Ana əlləriylə əkilən bağda,
Deyirəm çiçəklər heç vaxt solmasın,
Tanrı bəxşişi tək fani dünyada
Nə olar, analar kaş qocalmasın!

Ana yurdum, ata yurdum...

Füsunkardır təbiətin ana torpaq
Bir tərəfin dəniz, bir tərəfin dağ...
Sitrus ilə aşıb-daşır hər bağça-bağ,
Sən sevgimə, sən eşqimə tək ünvanım,
Ana yurdum, ata yurdum - Lənkəranım.

Yol gəlirsən, bilinməyir hələ yaşın
Tarixindən xəbər verir torpaq- daşın.
Öz oğlunla, öz qızınla uca başın,
Sən ruhumsan, sən nəfəsim, adım-sanım,
Ana yurdum, ata yurdum - Lənkəranım.

Yollar, izlər o Həzidən söhbət açır,
Torpaq -daşın qızılgül tək ətir saçır.
Burda dərd-qəm insanlardan uzaq qaçır,
Sən arzumsan, sən sözümsən, şərəf-şanım,
Ana yurdum, ata yurdum - Lənkəranım.

Neçə igid yetirmisən sən qoynunda,
Şəhid verdin Vətən üçün el yolunda.
Sən məğrursan, qəhrəmansan hər zamanda,
Sən anamın anasısan, gül məkanım,
Ana yurdum, ata yurdum - Lənkəranım.

Lənkəran - 2024

Xeyirxahlıq

Əmilərim Yusifə, Zahidə və dünyasını dəyişmiş Aydın müəllimə ithaf edirəm.

İnsanlıq özü də başlanır ondan,
İrsi əlamətdir, güc alır soydan.
Fəqət illər öncə ata-babadan
Əlamətdir özü xeyirxahlığın.

İnsan bölünsə də mərdə, namərdə,
Hamı kömək üçün üz tutur mərdə.
Zaman bir kimsəni salanda dərdə -
Təsəllidir sözü xeyirxahlığın.

İlk gündən günəş tək işıq paylayıb,
Məzlumu görəndə qəlbi ağlayıb.
Bədxahın üzünə qapı bağlayıb,
Qapanıbdı gözü xeyirxahlığın.

Toxumu ürəkdə əkilir onun,
Acizlikdən qəddi bükülür onun.
Gözləri yollara dikilir onun,
İşıq saçır üzü xeyirxahlığın.

Doğulur hər anda, hər bir saatda,
Gəlir ünvanına toy da, büsat da.
Yoxsa da nə atam, anam həyatda,
Sönməyibdi közü xeyirxahlığın.

Yaxşılar pisliyi puç eləyibdi,
Ömürdən saymayıb, heç eləyibdi.
Babalar dünyadan köç eləyibdi,
Fəqət qalıb izi xeyirxahlığın.

Lənkəran - 2026

Ata əvəzi

Azərbaycan ordusunun hərbçisi böyük qardaşım Ceyhuna

Bir sevgi dolaşır, gəzir qəlbində,
Doğma yurd-yuvadır, Vətəndir adı.
Durmusan keşikdə, silah əlində
Ey Vətən əsgəri, Vətən övladı!

Təcavüzkar düşmən dönüb yumağa,
Zəfər imzası var Odlar yurdunun.
Haqqın var həmişə qürur duymağa,
Məğrur hərbiçi tək qalib ordunun.

Dəyişir zaman da hey ildən ilə,
Böyük qardaş kimi dəyişmir yerin.
Yollarımız bu gün ayrılsa belə,
Böyükdür gözümdə qardaş dəyərin.

Atasız baxsaq da bu gün həyata,
Sevirsən ata tək hər birimizi.
İndi övladına olsan da ata,
Qalırsan bizə də ata əvəzi.

Doldurur yerini köçən atanın,
Ailə çiynində bir yük olurmuş.
Atalar köçəndə böyük qardaşın
Sən demə dərdi də böyük olurmuş.

Lənkəran - 2025

Arxadı qardaş
Kiçik qardaşım Davuda

Söhbəti səmimi, sözü səmimi,
Bölər sevincimi, bölər qəmimi.
Qardaşsız etməsin Tanrı heç kimi,
Hər zaman arxadı, dayaqdı qardaş.

Yaşın fərqi yoxdur, cavan ya qoca,
Önündə sipərdir dünya durduqca.
Ailə bənzəyir köklü ağaca,
Deyərdim, onda şah budaqdı qardaş.

Daşıyır çiynində qeyrət yükünü,
Qayğısız ötüşmür ömrün bir günü.
İstəməz başından əskik tükünü,
Yoluna nur saçan çıraqdı qardaş.

Baxsa da həyata atasız gözü,
Səslənir qulaqda öyüdü, sözü.
Bərkdə-boşda durur yerində özü,
Heç zaman sönməyən ocaqdı qardaş.

Hər işdə yanında, sənə həyandı,
Qəlbinin sirrini o, tez duyandı.
Dağı dağ üstünə bəlkə qoyandı,
Özü də arxanda bir dağdı qardaş.

Lənkəran - 2025

Düşdü

Naxçıvan Dövlət Universitetinin tələbələri, həyatdan vaxtsız köçmüş Əli və Fəttanın əziz xatirəsinə

Kəsildi ömürlər qəfil yarıdan,
Həsrətin yarası ürəyə düşdü.
Soldu bar verməmiş hər iki fidan,
Çiçəyi açmamış doluya düşdü.

Əlləri qoynunda o yana-yana,
Cavankən qocaldı gül üzlü ana.
Ata vida dedi övladlarına,
Ağrısı əbədi sinəyə düşdü.

İtkidən çoxunun oldu bağrı qan,
Görəsən göynəyi sağalar haçan?!
Xatırlar dost-tanış, doğma hər zaman,
Talelər çox erkən tələyə düşdü.

Atanın gözündə kədər çağlayır,
Matəm görkəmiylə sinə dağlayır,
Ana ağı deyir, səssiz ağlayır -
Ayrılıq gül üzlü mələyə düşdü.

Lənkəran - 2025

Kəlbəcər həsrəti

Tələbəm Şaiq Sadıqzadə 1 yaşından Kəlbəcərdən ailəsi ilə birlikdə qaçqın düşmüşdü. Daim Kəlbəcər həsrəti ilə alışıb yanırdı. Məhbubə ananın dediyinə görə, Şaiq özünə qəsd edən gün ondan yarpaq dolması istəyibmiş. Hər bir sözünə can deyən, anasının başını dolmanın bükülməsinə qarışdıran Şaiq "bacımgilə dəyim" bəhanəsi ilə özünü asır. Düz 10-12 dəqiqə sonra, onu həyətlərindəki tut ağacından asılmış halda tapırlar.

Yaşadıqları evdən aralı uzaqdan görünən əzəmətli dağlara boylanaraq hər gün nakam balasına ağı deyən ana övladını Goranboy torpağına əmanət kimi vermişdi. Səbirsizliklə mənfur düşməndən torpaqlarımızın alınmasını gözləyirdi, "mən o günü görə bilməsəm də mənim nəslimdən olan hər bir kəs bizim əmanət məzarımızı Kəlbəcərimizə köçürdər" deyirdi. Ana nə yaxşı ki, ordumuzun Kəlbəcəri azad etməsi xəbərini aldı, qələbə sevincini ailəsi ilə göz yaşı içində qeyd etdi. Lakin oğul itkisinə dözmədi, çox sevdiyi Şaiqinə qovuşdu. Aşağıdakı şeir Kəlbəcər həsrətilə dünyasını dəyişən Şaiqin dilindən qələmə alınıb.

Ay ana, yanıma yaman tələsdin,
Mən başa düşürəm dərd-qubarını.
Ağrılı, acılı bir ömür sürdün.
Zülümlə böyüdüb balalarını.

Ayrıldın gülüzlü Kəlbəcərindən,
Səni öz yuvandan ayrı saldılar.
Bilirəm ki, təkcə yurdunu deyil,
Həm də gəncliyini əsir aldılar.

Daşıdın həsrətin yorğunluğunu,
Bulud tək boşaldın, bulud tək doldun.
Çəkib çadırların soyuqluğunu,
İsti ürəyinlə şam, işıq oldun.

Yurduna bayatı, ağı dedikcə,
Hər səhər dağlara sən boylanırdın.
Gözünün önündə biz böyüdükcə.
Şükürlər edərək xoşhallanırdın.

Heyif ki, o arzu-diləklərini
Mən sənin gözündə qoydum, ay ana.
Daşıya bilmədim yurd həsrətini,
Demə ki, həyatdan doydum, ay ana.

Bilirəm, mənsizlik sənə əzabdı,
Amma nə edim ki ömür gödəkmiş.
Ömür bir yarımçıq qalan kitabdı,
Onu da nəsillər bitirəcəkmiş.

Əlindən ayrıldı əlim qəflətən,
Vurdu ürəyinə dağ üstə dağı,
Ay ana yanıma tələsdin nədən? -
Yolunu gözləyir Kəlbəcər axı!

Lənkəran - 2025

Sənsiz keçən günlər
(lirik poema)
Anam Əminənin əziz xatirəsinə

Anacan ayrılıq nə böyük dərddi,
Gedişin könlümə bir yara əkdi.
Gəzirəm qoynuna sığınmaq üçün,
Heyif səni torpaq bağrına çəkdi.

Göz yaşım yandırır bir alov kimi,
Sızlayır kaman tək qəlbimin simi.
Bir qərib yolçu tək çıxıb yollara,
Anamın yerinə çağırım kimi?

Sönən həyatıma sən işıq saçdın,
Ana, öz ömrünü ömrümə qatdın.
Duymuşam qayğını hər addımbaşı,
Körpə qızlarıma sən qucaq açdın.

Ay cənnət mələyim, balam de, səslə,
Axı mən səsinə həsrət qalmışam.
Nigaran baxışla yolumu gözlə,
İsti nəfəsinə həsrət qalmışam.

Nur üzlüm, baxıram şəkillərinə
Bəlkə də mən bir az ovunum deyə.
Yox, qəribə gəlir yoxluğun mənə,
İnana bilmirəm mən sənsizliyə.

Günlər, aylar... gəlib keçir ömürdən,
Fəqət dözümüm yox həsrətə, ana.
Bircə təsəlliylə yaşayıram mən,
Səni yola saldım cənnətə, ana.

Sənin gedişinlə ay mehribanım,
Elə bil dünyanın nuru azalıb.
Həyat eşqi ilə yanan Günəşin -
Baxıram, elə bil rəngi sozalıb.

Mənimlə bərabər sanki kainat
Ana ölümünə matəm saxlayır.
Həyətdə ağaclar əyib başını,
Bəlkə də mənimlə birgə ağlayır.

Yoğruldum ağrıyla, acılarla mən,
İlləri adlayıb dolmuşam yaşa.
Səni soruşuram xatirələrdən,
Durmuşam xəyalla indi baş-başa.

Didir, parçalayır hislər içimi,
İnləyir səssizcə könlümün simi.
Bilmirəm günahkar bilim mən kimi? -
Bunu qismətimdən, bəxtdən sormuşam.

Güclü görünməkdir bilirəm borcum,
Daha dərd çəkməsin qurban olduğum.
Dünyam yox, hansı ki, özüm qurduğum.
Sönmüş kül altında bir köz olmuşam.

Səpsəm də sözümə qəm toxumları,
Tərk edə bilmədim xoş xəyalları.
Unutmaq istədim dərd-ağrıları,
Könlümü şükürlə ovundurmuşam.

Əvvəl harda idim mən, indi harda,
Öncə qışda idim, indi baharda,
Hər nə bəxş edibdi Yaradanım da,
Səbrimi səbriylə qovuşdurmuşam.

Ay ana, insanlar kitab kimidir,
Bir-bir oxuduqca dəyər vermişəm.
Könüllər bənzəməz biri-birinə,
Saflıqda özümü üstün bilmişəm.

Hərdən gəl arada yuxularıma,
Görüşək, bölüşək hər dərdi, ana!
Yoxluğun səbəbdi könül ağrıma -
Bir cənnət itirdim əbədi, ana.

Lənkəran - 2026

Sənətdə yerin var...
AYB Lənkəran Bölməsinin sədri,
yazıçı-dramaturq Qafar Cəfərliyə

Həyat eşqi ilə köksündə ürək
Döyündü Vətənin hər addımında.
Sənət göylərində uçdun bir quş tək
Coşqun ilhamının söz qanadında.

"Şəhid Bayrağı"na and içdi hamı,
Coşdu hər ürəkdə Vətən sevgisi.
Qeyrətə çağırdın hər bir adamı,
Keçmisən onlara bir hünər dərsi.

Qələm də silahdı, silah da qələm,
Fəqət daşısan da polis paqonu.
O illər arxada qalsa da nə qəm,
Göstərdin aləmə haqqın yolunu.

İndi kitabların durur yan-yana,
Tutmusan sənətdə sən öz yerini.
Yenidən bəxş etdin Xan Lənkərana
Ədəbi mühitin töhfələrini.

Lənkəran -2026

Əminə xanım haqqında publisistik düşüncələr

El anası, xeyirxah insan və tanınmış xalq təbabətçisi! Övladlarına gözəl ana, mehriban və qayğıkeş ailə başçısı, təcrübəli pedaqoq Qadir müəllimə sədaqətli ömür-gün yoldaşı olan Əminə xanım xalqın, el-obanın yaddaşında məhz belə yaşayır.

Sağlığında qapısı tez-tez döyülərdi. Yardıma, məsləhətə gələnlərlə yanaşı qapısını döyən daha çox xəstələr olardı. Heç biri naümid geri qayıtmazdı. Çünki onlar insanlığa xas ən gözəl mənəvi keyfiyyət olan xeyirxahlığın canlı təcəssümü ilə qarşılaşardılar. Başqa sözlə desək, ürəklərindəki sönməkdə olan həyat eşqi ümid közü ilə yenidən közərib alovlanardı. Təbii ki, Əminə ananın halal ocağından alınan xoş təəssüratlar elə bu ocaqda qapanıb qalmazdı. Qəzet və jurnallarda dərc olunan publisistik məqalələrlə, haqqında yazılan şeirlərlə paylaşılardı...

Qeyd etdiyimiz kimi, bu el anası barədə çox yazılıb və yazılır.

Aşağıda müxtəlif mətbu orqanlarında işıq üzü görən həmin publisistik məqalələrin ikisini oxuculara təqdim edirik.

SINIQÇI ƏMİNƏ
(Oçerk)

İnsan övladı ağlı kəsəndən səhhətində yaranan problemləri həll etmək üçün çıxış yolları axtarmağa məcbur olmuşdur. İllər ötdükcə ibtidai tibbin belə olmadığı şəraitdə insanlar anlamışlar ki, bütün dərdlərin çarəsi elə təbiətdə - ətrafda rast gəlinən bitki və heyvanat aləmindədir. Bu səbəbdən ibtidai insanlar özlərini və qeyrilərini ətraflarında mövcud olan canlı aləmlə təmasda müalicə etməyə, sağaltmağa çalışıblar. Xalqdan qidalanan, xalqın yaratdığı və yaşatdığı bu müalicə üsulları sonralar xalq təbabəti adını almışdır.

Xalq təbabəti - insanlar arasında xəstəliklərin müalicə üsulları və vasitələri haqqında bilikləri nəsildən-nəslə keçirərək yaşadılan qeyri-ənənəvi təbabət forması hesab olunur. Xalq təbabətinin müalicə vasitələri elmi təbabətdən fərqli olaraq nəzəri şərtlərə əsaslanmır. Adından göründüyü kimi, həmin məlumatlar xalq arasında nəsildən-nəsilə şifahi yolla keçərək adət-ənənələrdə, zərb məsəllərdə, rəvayətlərdə öz əksini tapmış, həmçinin yazılı mənbələrdə toplanmışdı. Türklər arasında xalq təbabətinin bu üsul və vasitələrindən istifadəyə "türkəçarəlik", onları tətbiq edənlər isə "türkəçarə" adı ilə tanınırdılar. "Loğman" adı isə çox güman ki, İslamın qəbulundan sonra mey-

dana çıxmışdır.

Bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da türkəçarəliyin tarixi əsrlərə gedib çıxır. Həmin dövrlərdə insanların inancları da bu məsələdə vacib rol oynamışdır. Məsələn, ziyarətgahlarımızda ruhi xəstələrin sağalması, dua vasitəsi ilə ağrıların azalması, cinləri və ruhları qovanların mövcudluğu birbaşa şamanizmə bağlıdır.

Artıq yüz illərdir ki, yaşlı insanların müxtəlif bitkilərdən hazırladıqları dəmləmələrin, həmçinin müxtəlif meyvələrin soyuqlama, öskürək, üşütmə, boğaz ağrıları, nəfəs yolları xəstəliklərində, mədə-bağırsaq pozuqluğunda, qan azlığında, öskürəkdə çox gözəl nəticələr verməsi fakt olaraq hər kəs tərəfindən qəbul edilir. Bundan başqa xəstəliyin qarşısını almaq məqsədi ilə ildə bir dəfə həcəmət almaq (el arasında qan almaq) həm xüsusi alətlə, həm də zəli ilə bədəndəki çirkli qanı xaric etmək üsulu indi də çox istifadə edilir. Zökəm, tumov, göyöskürəyə tutulmuş xəstələri türkəçarəliyin bir qolu hesab olunan hanıxçılar (hənəkçilər) tərəfindən müxtəlif dəmləmələr, bal şərbəti, isti inək südü, şalğam şərbəti, üzüm sirkəsi ilə müalicə etmişlər.

İstər qədimlərdə, istərsə də müasir dövrümüzdə vergili türkəçarəçilər xalq arasında daha çox məşhur olmuşlar. Bunlara hanıxçılıq, əbəçilik (mamaçılıq), sınıqçılıq, çöpçülük, göbəkçəkənlik və s. aiddir. Bu növ

türkəçarəçilər bu işləri nəsildən-nəslə ötürülən bir bacarıq kimi dəyərləndirsələr də, əslində bu qabiliyyət onlara Allahın fitrətən verdiyi bir istedad sayəsində həyata vəsiqə alır. Əlbəttə, burda təcrübə də öz sözünü deyir.

Belə vergili türkəçarəçilərdən biri də haqqında yazmaq istədiyim Əminə xanımdır - sınıqçı Əminə adı ilə bütün bölgədə məşhur olan Əminə Məcidova.

Əminə Qurban qızı Məcidova (ata familiyası Əliyeva) 15 avqust 1955-ci ildə Astara rayonu, Ərçivan kəndində anadan olmuşdur. Atası Qurban Əliyev kənd məktəbində təsərrüfat müdiri işləyib. Anası Ağanisə Məmmədova Astara rayonunda ilk ali təhsilli Azərbaycan dili və ədəbiyyat müəllimlərindən olub. Bu cütlüyün üç oğlu və üç qızı dünyaya gəlib. Əminə qızlardan ən kiçiyi, qardaşların sonuncusundan böyük olub. Əminə demək olar ki, ana nənəsi Fərəhnisənin yanında böyüyüb boya-başa çatıb.

Əminə xanımın bacılarının hər ikisi orta məktəbdə ibtidai sinif müəllimləri işləyiblər. Böyük qardaşı Yusif bölgənin ən tanınmış kimya-biologiya müəllimi və repetitoru olub. Əminə xanım çalışqan, hazırlıqlı, məktəbin seçilən şagirdlərindən olub. Xüsusən xarici dilə-ingilis dilinə olan sevgisi böyük olub. Elə bu səbəbdən orta təhsilini bitirəndən sonra Əminə böyük qardaşı Yusiflə birlikdə Bakıya gəlir və sənədlərini Xarici Dillər İnstitutuna verir. İmtahanları uğurla ve-

rib ingilis dili fakültəsinə qəbul olunur. Həmin günlərin birində Yusif İnstitutun həyətində əslən Lənkəranın Səpnəkəran kəndindən olan, İnstitutda rus dili və ədəbiyyatından dərs deyən dostu Qadir Məcidovla rastlaşır. Dostlar səmimi şəkildə görüşüb hal-əhval tuturlar. Yusifin bacısının İnstituta qəbul xəbərindən Qadir müəllim sevinir və Əminəni təbrik edir. Və nəinki təbrik edir, hətta bu ağ bənizli, qara göz, qara saçlı qız onun diqqətini cəlb edir və nəinki cəlb edir, bir könüldən min könülə bu qıza vurulur. Sonrakı sözsöhbətdən qızın da bu gənc müəllimə etinasız olmadığı məlum olur. Dərs ili başlanmasına günlər qalmış bu qarşılıqlı sevgi çətin sınaq qarşısında qalır. Evdə yaranan problem üzündən Qadir müəllim ya Bakıda qalmalı, ya da rayona qayıtmalı idi. Gənclər ikinci yolu seçirlər və bir neçə aydan sonra - 1973-cü ildə ailə qurub evlənirlər. Məcidova soyadını qəbul edən Əminə xanım Səpnəkəran kəndində evin sonbeşiyi olan Qadir müəllimlə birlikdə onun ata yurdunda yaşamağa başlayır. Yeri gəlmişkən, hər ikisinin atasının eyni adda - Qurban olması çox az təsadüf olunan haldır ki, bu cür hal mənim də həyatımda yer almışdır. Düzdü, bu evlilik hər iki gəncin çox arzu və istəklərinə sədd çəksə də, onların ailə xoşbəxtliyinə mane ola bilmir. Qadir rayonun Avrora qəsəbə məktəbində müəllim, Əminə xanım isə həmin məktəbdə laborant kimi işə başlayır. Əminə xanımın əmək fəaliyyəti cəmi üç il çə-

kir və o, Allahın fitrətən ona verdiyi türkəçarə ilə - sınıqçılıqla məşğul olmağa başlayır.

Yuxarıda qeyd etdiyim kimi türkəçarəçilik əsrdən-əsrə, nəsildən nəslə keçən, amma xüsusi istedad və bacarıq tələb edən bir işdir. Nəsildə onlarla insandan ola bilir ki, bu istedad yalnız birinə keçir.

Əminə xanımın ana tərəfdən yeddi nəsli (bəlkə daha artığı) türkəçarəliyin sınıqçılıq - zədələri, sınıqları müalicə etmək növü ilə məşğul olublar. Maraqlı burasıdır ki, bu bacarıq nəsildə yalnız qız uşaqlarına nəsib olmuşdur. Təbii ki, burda insanın həvəs və istəyi, zəhmətə qatlaşmağı, səbr və dözümü də başlıca rol oynayır. Əminə xanımın anası Ağanisə xanım tanınmış sınıqçı olub. O sınıqçılığın sirlərini öz anasından, dövrünün çox tanınmış sınıqçısı Fərəhnisə xanımdan əxz etmişdi. Balaca Əminə də nənəsinin yanında qaldığından sınıqçılığın sirlərini orda öyrənir.

Mənim sınıqçılarla tanışlığım hələ uşaq yaşlarımdan başlayıb. Səbəb isə futbola olan sonsuz həvəsimə bağlı idi. Məhəlləmizdə həmyaşıdlarım arasında futbol həvəskarları çox olduğundan qış istisna olmaqla digər fəsillərdə həftədə 3-4 dəfə, axşamüstü sahə kənarındakı meydançada futbol oynayırdıq. Hücumçu olduğumdan və tərif kimi çıxmasın, bir az da yaxşı oynadığımdan həmişə təzyiqlərə və zərbələrə tuş gəlirdim. Elə bu səbəbdən də hər iki qolum, hətta sol qolum iki dəfə sındığından tez-tez sınıqçılara qonaq

olurdum. Həmin illərdə Lənkəran şəhərində yaşayan Sucəddinin arvadı Raciyyə kimi tanınan məşhur sınıqçı var idi. Rayonun bəzi kəndlərində, elə yaşadığım Viyən kəndində də kərbəlayi Məmməd, məşhur ağ axundun həyat yoldaşı Bikə xanım, Əmrah Hüseynov sınıqçılıqla məşğul olurdular. Yeri gəlmişkən deyim ki, sonradan hücumçu olmaqdan imtina edib qapıya keçməklə əl-qolum salamat qaldı. Dediyim odur ki, həmin vaxtı sınıqçılar xalq təbibi kimi el arasında böyük hörmət sahibi idilər. Onların müalicə etdikləri sınıqlar da sonradan heç bir problem yaratmırdı ki, bunu öz üzərimdə də görmüşdüm.

Əminə xanım sınıqçı kimi fəaliyyətə başlayandan sonra qısa vaxt ərzində xalq arasında böyük nüfuz qazanmağa başladı.

Sınıqçı Əminə adını mən 1970-ci illərin sonlarından eşitməyə başladım. Əminə xanımla şəxsi tanışlığım isə çox sonralar oldu. Mən uzun illər xidməti işimlə bağlı doğma Lənkəranımdan kənarda olmuşam. 2005-ci ildən başlayaraq Lənkəranda yaşamağa başladım. Əminə xanımla ilk görüşüm təxminən on il əvvələ təsadüf etdi. Ayaq barmağımdakı ağrı ilə əlaqədar Əminə xanımın yanına getdim. Əminə xanım məni müalicə etdi. Aramızda xoş ünsiyyət yarandı. Həmin vaxtı artıq mənim iki kitabım çıxmışdı. Mən kitablarımı ona hədiyyə etdim. Sonralar bu münasibət yaxın dostluğa, bacı-qardaş münasibətinə çevril-

di. Arada zəngləşirdik, təzə kitabımın olub-olmaması ilə maraqlanırdı.

Xarakterinə, insanlarla münasibətinə, bacarığına, müalicə üsullarına görə Əminə xanım digər həmkarlarından fərqlənirdi. Bu fərqlər hansılar idi? Eşitdiklərimə və şəxsi görüşlərimdə şahid olduqlarıma əsaslanıb aşağıdakı fərqləri qeyd etmək istəyirəm.

Bu yaşımda həm özüm, həm də ailə üzvlərimlə bağlı çoxlu sayda sınıqçı, çöpçü, həcəmətçi və digər türkəçarəçiliklə rastlaşmış, ünsiyyətdə olmuşam. Onların heç birinin gördüyü işə görə konkret məbləğdə pul istəmələrini görməmişəm. Sanki, bu insanlar Allahın onlara fitrətən verdiyi bu sevgiyə ləkə gətirmək, hörmətdən salmaq istəməmişlər. Bu adət günü bu gün də (bəzi istisnalarla) davam etməkdədir.

Əminə xanımın da müalicə etdiyi şəxslərdən pul istəməsini və ya digər nəsə ummasını heç kim deyə bilməz. Doğrudur, xalqımız heç vaxt zəhməti diqqətsiz saxlamır. İnsanlar Əminə xanıma da zəhməti müqabilində imkanları daxilində dəyər verməyə çalışıblar. Amma Əminə xanımın imkansız, kasıb insanları heç bir umacaq olmadan müalicə etməsinə dair saysız-hesabsız misallar gətirə bilərəm ki, şəxsən özüm də bunun canlı şahidi olmuşam. Və bunu Əminə xanımı fərqləndirən ən vacib cəhət hesab edirəm.

Xarakterində Allah tərəfindən verilən gözəl xasiyyət, səmimiyyət, mehribançılıq, doğmalıq, sevgi dolu

ürəklə yanaşı, Əminə xanım xaricən də gözəl-göyçək, xoş simalı bir xanım idi. Ürəkləri riqqətə gətirən gözəl aurası var idi. Onun şirin və mənalı danışığı insanı valeh edirdi. Xaraktercə ağır, sözünü bilən, necə deyərlər hər kəsin dilini bilən xanım idi. Az-az gülərdi ki, bu da onun xarakterindəki ciddilikdən xəbər verirdi.

Əminə xanımı mənim üçün fərqləndirən mühüm cəhətlərdən biri onun kitaba olan sonsuz sevgisi idi. Əminə xanım evində ayrıca bir otaq düzəltmiş, xəstələri yalnız orda qəbul edirdi. Hər dəfə onun yanında olanda mizin üstündə çoxlu sayda kitab görürdüm. Bir dəfə sözarası mənə dedi ki, ali təhsil almamağıma indi də peşmanam və çox təəssüflənirəm. Əminə xanımda kitaba olan sevgi bəlkə də son nəfəsinə kimi qaldı. Xəstələri çox olardı. Buna rəğmən mütaliə etməyə də vaxt tapırdı. Nədənsə, Əminə xanım detektiv kitabları oxumağı çox sevirdi. Mən də yaradıcılığımın ilk illərində ard-arda bir neçə detektiv kitablar yazdım. Hər dəfə kitablarımı ona verəndə uşaq kimi sevinirdi. Kitabı götürəndən bir neçə gün sonra mənə zəng edib oxuduğu əsərlərlə bağlı fikir və düşüncələrini bölüşürdü. Mən bu xanımda ciddi mükalimə və təhlil etmək qabiliyyətinin də üstün olduğuna dəfələrlə şahid olmuşdum.

Əminə xanımın başqa bir fərqli cəhəti onun təkcə öz övladlarına qarşı deyil, ümumən insanlara qarşı da

çox tələbkar olması idi. Müsahibi olduğu insanları savadlı, diqqətli, məsuliyyətli, çalışqan, zəhmətkeş olmağa, kitab oxumağa, mədəniyyətlə, incəsənətlə maraqlanmağa səsləyirdi. Əminə xanım özü də başqalarından tələb etdiyi xüsusiyyətlərə sahib idi.

Əminə xanımın digər bir fərqli cəhəti onun təkcə sınıqçılıqla deyil, bir çox qadın xəstəliklərini də bilməsi və müalicəsi ilə uğurla məşğul olması idi. Əlində sanki İlahi bir şəfa var idi ki, bunun da əsas səbəbi onun insanları sevməsi, dərdlərinə öz dərdi kimi yanması və işini ürəklə, sevgi ilə görməsi idi.

Əminə xanımın ən gözəl cəhətlərindən biri onun yalnız müalicə edə biləcəyi xəstəni qəbul etməsi idi. Hər hansı marağa görə xəstəni heç vaxt incitməzdi. Elə ilk müayinədə lazım olan xəstələri dərhal həkimə yönəldərdi.

Əminə xanım son dərəcə soyuqqanlı, səbrli bir insan idi. Həyatın bir çox sınaqlarından, çətinliklərindən çıxmağı bacarmışdı. Amma Əminə xanımı üzən hadisələr də olmuşdur. Təəssüf ki, amansız fələk bu ailədən də yan keçməmişdi. Əminə xanımdan yaşca böyük qardaşı Rəcəbəli təxminən 40 il əvvəl Rusiyaya işləməyə getmiş və günü bu günə kimi qaldısı-öldüsü barədə heç bir məlumat yoxdur. 1988-ci ildə ailənin kiçik oğlu, Əminə xanımın ən istəkli qardaşı Ağakərim 28 yaşında ikən bir faciəli hadisənin qurbanı oldu. Deyilənə görə hadisə barədə xəbəri Əminə xanıma

təndir başında veriblər. Əminə xanım təndirə çörək yapırmış. Ona deyirlər ki, Ağakərim bərk xəstələnib, atası deyir ki, özünü çatdırsın. Əminə xanım bu xəbərdən anidən tutulur. Xəbər verənin üzünə diqqətlə baxıb deyir:

- Xəstəliyinə görə atam məni narahat etməz. De görüm, qardaşıma nə olub?

Hadisəni biləndən sonra 5-10 saniyəlik hönkürtüdən sonra özünü ələ alır ki, uşaqlar xəbər tutmasınlar. Sakitcə geyinib ata evinə yola düşür. Bütün bu hadisələr Əminə xanımın səhhətinə pis təsir edirdi.

Əminə xanımın apardığı müalicə işini həmin sahənin həkimləri bəyənir və bəzən özləri də onun xidmətindən yararlanırdılar. Cənub bölgəsinin ən məşhur travmatoloqu, Lənkəran səhiyyəsində travmatologiya şöbəsini yaradan və uzun illər rəhbərlik edən İlham Qubadov söz düşəndə Əminə xanımı "oxumamış alim" adlandırırdı.

Bütün bu və yazmadığım çoxsaylı fərqli cəhətlərinə görə Əminə xanım xalq arasında "EL ANASI" kimi tanınırdı. İndinin özündə də sınıqçı Əminə sözünü eşidən hər kəsin simasını xoş bir təbəssüm bürüyür, xatirəsi hər kəs tərəfindən əziz tutulur.

Əminə xanımla Qadir müəllimin ailəsində iki oğlan, iki qız dünyaya gəlmişdir. Övladlarının dördü də ali təhsil alıblar. Oğlanları Ceyhun hərbiçi zabit, Davus isə SOKAR sistemində işləyir. Qızları Mahizər ta-

nınmış pedaqoq, hazırda isə kənd məktəbinin direktorudur. Digər qızı Leyla haqqında isə aşağıda məlumat verəcəyəm.

Əminə xanım 45 il bir yastığa baş qoyduğu Qadir müəllimdən sonra cəmi 3 il bir aya kimi yaşadı. 18 dekabr 2021-ci ildə gözlərini bu dünyaya əbədi yumdu. Onun itkisi nəinki, ailəsi və əzizləri üçün, eləcə el-oba üçün də əvəxzsiz itki oldu.

Əminə xanım kimi işıqlı bir insanın xatirəsinin bu gün də ehtiramla yad edilməsinin bir səbəbi də fikrimcə, onun möhtəşəm işinin qızı Leyla xanım tərəfindən layiqli şəkildə davam etdirilməsidir. Leyla Məcidova özü tanınmış tarixçi alimdir, tarix üzrə fəlsəfə doktoru, Lənkəran Dövlət Universitetinin dosentidir. Leyla xanım həm də Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin direktorudur.

Leyla xanımla olan çoxsaylı görüşlərimdə, gördüyüm və eşitdiklərimdə onun da anası kimi bu sahədə Allahın fitrətən verdiyi bir bacarığa və istedada malik olmasının şahidi olmuşam. Bütün elmi və xidməti işləri ilə yanaşı, Leyla xanım imkan düşən kimi qapısına gələn xəstələri naümid qaytarmır. Bəzi cəhətlərinə görə (xüsusən Leyla xanım daha deyib-gülən, şən xanımdır) anası Əminə xanımdan fərqli olsa da, Leyla xanım da yorulmaq bilmədən sirlərini öyrəndiyi sınıqçılıqla məşğul olmaqla xalqa təmənnasız xidmət edir. İşi sonsuz istək və sevgi ilə görməsi sayəsində el

arasında artıq böyük hörmət və ehtirama sahiblənə bilmişdir. Əslində, başqa cür ola da bilməzdi, çünki o, Əminə xanım Məcidovanın ailəsində dünyaya göz açmış, o müqəddəs bulaqdan su içmişdir.

Əminə xanım artıq bir neçə ildir ki, həyatda yoxdur. Cismani olmasa da, ruhən sağdır. Onun xoş əməlləri daima xatırlanır. Bu gün qızı Leyla xanım onun işini ləyaqətlə davam etdirir. Sabah isə Əminə xanımın nəvəsi, nəticəsi, kötükcəsi bu savab işi, bu xeyirxah işi görmüş olarlar. Və nə qədər ki, bu iş davam edər, bir o qədər də Əminə xanım yaşayacaq və yaşadıqca da özünə rəhmət qazanacaq.

Qafar Cəfərli, yazıçı-dramaturq.
"Söz" jurnalı, yanvar 2025

El anası Əminə ana

Ölüm sevinməsin qoy!
Ömrünü vermir bada!!
El qədrini canından daha əziz bilənlər,
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər"

(S.Vurğun)

Ağsaqqal, ağbirçəklər elin tükənməz sərvəti, vardövlətidirlər. Ağsaqqal- ağbirçəksiz cəmiyyətdə xeyir-bərəkət olmaz deyiblər. Nədəndirsə, bu gün artıq ağsaqqal-ağbirçəklərin sırası xeyli seyrəlib. Ağsaqqal-ağbirçəklərin yarpaq tökümləri niyə tez baş verdi, bilmirəm. Yavaş-yavaş böyük-kiçik yeri, yurdu bilinmir. Tezdən duran, bir balaca düşünə bilən özünü ağsaqqal, hər uzun tuman geyən, iri şal bağlayan və hündür, hirsli, hikkəli danışan özünü ağbirçək sayır, hər kəsi özünə borclu bilir. Bu gün artıq eldə ağsaqqal-ağbirçəklər barmaqla sayılası haldadır. Ağsaqqal-ağbirçəklərin sırasının seyrəlməsi bir evin yox, bütövlükdə bir elin itkisi, faciəsidir. Öz yerini bilən ağbirçəklərimizdən, xanım-xatun böyüklərimizdən idi Əminə ana.

Cənubumuzun qədim tarixə malik məkanlarından olan doğma Lənkəranımızda öz xeyirxahlıqları, əldən tutmaları ilə seçilən, xalqın xeyir-şər işlərində

iştirak etmələri ilə yaddaşlarda qalmış çoxlu ağbirçək nənələrimiz olmuşdur. Çətin məqamda, qıtlıq illərində dəfələrlə kasıb-kusuba, toy, hüzr sahiblərinə köməklik göstərmiş, həmişə xeyirxahlıqları ilə fərqlənən adamları gənc nəsil görməsə də eldə adları o qədər hörmətlə anılır ki, elə onları daha yaxından tanımış olursan. Ömür yolu çoxuna örnək olası Əminə ana da məhz belə ağbirçəklərimizdən idi.

Əminə ana 1955-ci ildə Astara rayonunun Ərçivan kəndində ziyalı ailəsində doğulmuşdu. Ailənin kiçik qızı idi. Lənkəran rayonunun Səpnəkəran kəndinə, Qurban kişi ocağına gəlin köçmüş, tanınmış ziyalı, ali təhsilli rus dili müəllimi Qadir Məcidov ilə ailə həyatı qurmuşdu. Əminə ana həm də gözəl ailə başçısı, zəhmətkeş evdar xanımı olaraq bu ailəlikdən dörd uşaq - iki oğul, iki qız dünyaya gətirmişdi. Övladlarını əzab-əziyyətlə, halal zəhmətlə böyüdüb boya-başa çatdırmış, gözəl tərbiyə verərək cəmiyyətin layiqli üzvünə çevirmişdi. Doğma övladlarını, eləcə də əlavə olaraq bacı qızlarını, qardaş balalarını da böyüdüb boya-başa çatdırmış, oxutdurmuş, öz doğma ocağından gəlin yola salaraq, ev sahibi olmalarına köməklik göstərmişdi. Min bir zəhmətlə oxutdurub, ali təhsil almalarına, işlə təmin olunmalarına nail olmuşdu. Böyük oğlu artıq otuz ildir ki, hərbçidir. Kiçik oğlu isə mütəxəssis olaraq Socarda çalışır. Böyük qızı Leyla xanım Tarix üzrə Fəlsəfə doktorudur. Hazırda Azər-

baycanın prestij təhsil ocaqlarından olan Lənkəran Dövlət Universitetinin baş müəllimidir. Kiçik qızı Mahizər xanım isə on səkkiz ildir ki, qabaqcıl məktəb direktorudur. Təkcə öz balalarına, çevrəsinə deyil, tanıdığı, bildiyi kimsəsizlərə də ana olmuşdu Əminə ana.

El anası idi Əminə ana. Yoxsullara, imkansızlara əl tutardı. Sağ əlinin verdiyini sol ələ bildirməzdi heç vaxt. Həyat göstərir ki, Əminə ana kimi elinin, obasının dərd-sərinə şərik çıxan xoş məramlı insanlar yavaş-yavaş xalqın istəklisinə çevrilir, xeyirxahlıqları ilə yaddaşlara həkk olunur, ülviləşirlər. Əvvəl-axır xalq onun yolunda hər hansı bir xeyirxahlıq göstərən, neçə-neçə savab işlərin qulpundan yapışanları öz qəlbində əbədiləşdirir, ölümsüzləşdirir. Əbəs yerə deyil ki, xalq təfəkküründün incisi sayılan bayatılarımızdan birində deyilir:

Əzizim kömək əli,
Haqq Əli, kömək əli.
Gözdə, könüldə yaşar
Uzadan kömək əli.

Ağsaqqallarımız, ağbirçəklərimiz söyləyirlər ki, xeyirxah, əldən tutan adamlar paxıllıq, dedi-qodu, giley-güzar kimi qeyri-insani hisslərdən uzaq olurlar. Bu adamlar el-oba üçün yaşayıb-yaratmaq arzusu ilə

ömür sürürlər. Bu gün adı təkcə Lənkəranda deyil, bütün Cənub zonasında hörmətlə yad edilən Əminə ana da ömrünü yaxın-uzaq hamıya, bütün el-obaya xəsislik etməyən xərcləyən xeyirxahlardan idi.

Əminə ana imanlı, namaz qılan, pəhrizkar, özünkü ilə özgəyə fərq qoymayan, imkansıza əl tutan, qonşu ilə münasibəti yaxşı olan, ümumiyyətlə əsl gözəl əxlaqa malik insan idi. Heç vaxt ibadətindən qalmır, orijinaldan "Quran" oxuyardı. Övladlarına da bunu aşılamışdır Əminə ana. Yaxına, uzağa - hamıya mehriban, ana nəvazişi ilə yanaşardı. Əminə ana həm də xalq təbabəti - türkəçarənin mahir bilicisi idi. Əminə ana min bir zəhmət sərf edərək əsrlərin, minilliklərin daş yaddaşından süzülüb bu günümüzə gəlib çatan bu sənəti ömrü boyu yaşadıb və təbii ki, təkcə yaşatmaq yox, həm də bu sənətlə həmvətənlərinin sağlamlığının keşiyində durub. İmkansıza əl uzadıb, şəfa göstərib, qapısına ümidlə gələni naümid qaytarmayıb. Gördüyü işi, etdiyi əməli, göyərtdiyi yaxşılığı isə heç bir təmənna ummadan edib. Bax budur onun böyüklüyü, ucalığı, camaatın, elin yanında, bugünkü yaddaşında hörmətlə anılmağı, xatırlanmağı. Bütün ömrünün, həyatının daha çox yadda qalan hissəsi onun xalq təbabəti ilə məşğul olmasıdır.

Əminə ana Lənkəranda sınıqçılıqla məşğul idi. Eldə, obada mahir sınıqçı olaraq tanınırdı. El anası olaraq xalq təbabətinin bütün sirlərini Fərəhnisə nənə-

sindən öyrənmişdi. Onun fəaliyyəti təkcə Lənkəranda bitmirdi, ətraf kəndlərdən, hətta qonşu Masallı, Astara və Lerik rayonlarından onun yanına müalicəyə gələrdilər. Əziyi, sınığı, çıxığı olan ona müraciət edər və təbii ki, qısa zaman kəsiyində müalicə olunub sağalardı. Elə şəxslər olurdu ki, avtomobil qəzasında elə hala düşürdü ki, onu Əminə ananın yanına gətirə bilmirdilər. Onda o özü tərəddüd etmədən maşınla, piyada da olsa belə, xəstənin yanına gedər, əzilmiş sümükləri bir-birinə elə calayıb bağlayardı ki, bəlkə də müasir təbabət bunun öhdəsindən çətinliklə gələrdi. Ən müasir təhsilli travmatoloqların görə bilmədiyi işi Əminə ana asanlıqla yerinə yetirər, icra edərdi. Nə qədər ağır xəstə olsa da onu xəstəxanaya, rentgenə yox, məhz onun yanına gətirərdilər. Onun isə çox sadə, özünəməxsus müalicə üsulu olardı. Çıxmış əzanı su ilə yuyar, dərini yumşaldar və sadə bir dartı hərəkəti ilə çıxığı yerinə salardı. Əzik, sınıq yeri zərif əlləri ilə rentgen dəqiqliyi ilə müayinə edər, sümük sınığına çata bal sürtər, qoyun piyi (quyruq) bağlayar, boyaqotu və şirnidən hazırladığı məlhəmlə gipsvari sarğı qoyardı. Həkimin rentgenlə görə bilmədiyi sınığı uzaqdan baxıb zərgər dəqiqliyi ilə təyin edərdi.

Əminə ana həm də qadınlara ana olmaqda kömək əlini uzadardı. Əminə ananın qapısını ümid yeri bilib gələnlər heç vaxt əliboş qayıtmazdılar. Təmənnasız kömək görər, xoş təbəssüm və sevinclə geri qayıdar-

dılar. Ümumiyyətlə hamı - qonum-qonşu onun ocağına, yanına xəstə, ümidsiz, qanıqara gələn gəlinləri həmişə gülərüz, sevinə-sevinə, ona dua -səna edə-edə qayıdan görürdülər. Əminə ana zərif, şəfalı əlləri ilə qadınlarda doğuş zamanı çanaq sümüyünün sınması, kürək sümüyünün batmasını müalicə edər, qarın çəkmək, çilə kəsmək (nənəsindən qalma canavar kəlləsi ilə), kişi sonsuzluğuna qarşı baldan müxtəlif ədviyyatlar, dərmanlar hazırlayardı. Gördüyü işlərin ən müsbət tərəfi təmənna ummaması idi.

Bu gün Əminə ana bütün el-obanın yaddaşında xalq təbabətinin - türkəçarənin gözəl bilicisi kimi bir xanım olaraq qalıb. Bu xanım gözəl təbabət bilicisi, həmişə haya gedən, dada çatan idi. Eyni zamanda mamaçılıqla da məşğul idi. Sonsuzluğa qarşı müalicə edər, analara mamaçılıq, həkimlik edərdi. Özünəməxsus dərman reseptləri var idi. Boya-başa çatdırdığı övladları da (xüsusən qızları Leyla xanım və Mahizər müəllimə) bu gün peşələrindən əlavə olaraq analarının yolunu da davam etdirirlər.

Əminə ana elə hey vurğulayardı ki, ay bala, insan övladı xoş arzularla, xeyirxah əməllərlə yaşayıb-yaratmalıdır. Əbəs demirlər ki, xeyirxah əməllərə malik olanlar daha uzunömürlü olurlar. Bax elə bundan dolayı da bütün ömrü boyu xeyirxahlığı, imkansıza kömək etməyi, arxasıza arxa durmağı özünün həyat idealına çevirmişdi Əminə ana.

Böyük humanist şair Xaqani Şirvani hələ neçə yüz il bundan əvvəl aşağıdakı fikirləri sanki Əminə ananın xarakterinə uyğun olaraq yazmışdır:

İstəsən güzgütək saf olsun ürək,
Sinəndən on şeyi atasan gərək.
Haram, qeybət, kinə, paxıllıq, tamah,
Kibr, riya, həsəd, ədavət, kələk.

Yaxından tanıyanları heç tərəddüd etmədən Əminə ananın da yuxarıda sadalanan fikirlərdən tam halda uzaq olduğunu təsdiqləyirlər. Həmsöhbət olduğumuz insanların demək olar ki, hamısı - uşaqdan böyüyə kimi hamı, xüsusən Xeyran xanım Həsənova, Gülarə xanım Fazilqızı, Cəmil Məmmədzadə və başqaları bir ağızdan həm bu ailə haqqında, həm də ağbirçəyimiz Əminə ana haqqında ağızdolusu xoş sözlər söylədilər, xoş ifadələr işlətdilər. Toplumun fikrini əsas götürərək əminliklə deyə bilərik ki, Əminə ana sağlığında özünə əbədi rəhmət, əbədiyaşarlıq, ölməzlik qazanan bir anadır. Nə qədər tərəqqipərvər, yaxşı əməlləri qiymətləndirməyi bacaran insanlar varsa, el sənətkarı, el ağbirçəyi Əminə ana da o vaxta qədər xatırlanacaq, o vaxta qədər yaşayacaqdır. Qoy oxucularım məni qınamasın, mən Əminə ananı sağlığında pəhrizkarlığı, imanlı, təqvalı olması, xeyirxahlığı, dindarlığı, humanistliyi ilə özü-özünə dünya durduqca

mövcud ola bilən əbədi bir heykəl qoyan sənətkar adlandırıram.

Bir vaxtlar dəyərli söz ustadımız Hüseyn Arif yazırdı ki,

Elə ki, balalar gəlir dünyaya,
O, gündən hey ölçüb, biçir analar.
Mahnı da oxuyur, şeir də deyir
Bəstəkar analar, şair analar.

Dözür hər əzaba o bilə-bilə,
Yaşayır, sirrini salmadan dilə.
Vaxt olur, qaldırıb ağını belə
Şərbət əvəzinə içir analar.

Unudub illərin yorğunluğunu
Həyatda dincliyi, evdə yuxunu,
Sevincin azını, qəmin çoxunu,
Yükün ağırını seçir analar.

Alnında zamanın açdığı qırış,
Başına qar tökür, qar ələyir qış.
Odun istisindən aralanmamış,
Suyun soyuğundan keçir analar.

Özüm də bilmirəm, Hüseyn, niyə
Başımın tüstüsü çəkilir göyə?

Torpaqmı anasız qalmasın deyə,
Torpağın qoynuna köçür analar?

Əminə ana çox erkən, 18 dekabr 2021-ci ildə bu vəfasız dünyaya əlvida dedi. Süleymana qalmayan dünya Əminə anaya da vəfa qılmadı. Cəmi altımış altı yaşı var idi. Tanrı bəndələrinin əksəriyyəti ondan razı olduğu kimi, arzu edirik ki, Ulu Tanrı da ondan razı qalsın, günahlarını bağışlasın (əgər varsa), yeri behişt oldun (yəqin ki, bu belədir). Amin!

Malik Balaşov,
Publisist, "Qızıl qələm" media mükafatçısı.

Mündəricat

Ön söz və ya ana haqqında düşüncələr. (Müəllifdən) 3

Şeirlər 13

Ana vətən.....14

Ürəyim ana 16

Laylayına darıxmışam 18

Möhtacam indi 19

Cənnət lap yaxın imiş.....21

Ana ürəyi 23

Qoymazdım həyatın sönə... 24

Ana sevgisi 26

Ömür də borcdur... 28

Həyat 29

Ana əlləri.....30

Ömrü yarıda qaldı 32

Məzar daşı 33

Zəhmət dərsi 35

Ad günün mübarək! 38

Yenə yadıma düşdün... 40

Ad günü 42

60 yaş nədir ki... 44

Səndən bir gəlibdi.....45
Şəhid anası.....47
Səndən ayrıldığım gün... 48
Analar.....49
Analar qocalmasın.....50
Ana yurdum, ata yurdum... 53
Xeyirxahlıq.....54
Ata əvəzi 56
Arxadı qardaş.....57
Düşdü.....58
Kəlbəcər həsrəti.....59
Sənsiz keçən günlər.....62
Sənətdə yerin var... 66

Əminə xanım haqqında publisistik düşüncələr 67
SINIQÇI ƏMİNƏ.....69
El anası Əminə ana.....81

Leyla Məcidova
"Anamdan yadigar nəğmələr"

Naşir: Ceyhun Əliyev
Texniki redaktor: Yeganə Rəfiyeva
Operator: Günay Qurbanova

Yığılmağa verilib: 17.09.2026
Çapa imzalanıb: 15.10.2026
Tiraj 300, şərti çap vərəqi 6
"Ecoprint" nəşriyyatının mətbəəsində
çap olunmuşdur.
Tel: +994 55 216 09 91

Müəllif haqqında məlumat

Məcidova Leyla Qadir qızı Lənkəran rayonunun Səpnəkəran kəndində anadan olub. Lənkəran Dövlət Universitetini tarix ixtisası üzrə bitirib. 2000-ci ildən 2002-ci ilədək Universitetin Magistratura pilləsində "Yeni və ən yeni tarix" ixtisası üzrə əyani təhsil alıb. 2016-cı ildə "XIX əsrin sonu XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial iqtisadi vəziyyəti" mövzusunu müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb. 2 monoqrafiyanın, 2 tarixi oçerkin, 3 fənn proqramının, 100-dən artıq publisist, 80-dən artıq tezis və beynəlxalq jurnallarda çap olunan məqalələrin müəllifidir.

Bədii yaradıcılığa hələ orta məktəb illərindən başlayıb. Publisistik məqalələri, hekayələri və şeirləri yerli "Lənkəran" qəzetində, "Söz", "Məşəl" və "Şəfəq" ədəbi-bədii jurnallarında dərc olunub.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü və "Dünya niyə sevilməsin" şeirlər kitabının müəllifidir.

"Anamdan yadigar nəğmələr" adlı şeirlər kitabı onun öz oxucuları ilə 2-ci görüşüdür .